Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# Azərbaycanda təhsil hesabına dinamik inkişaf xüsusi diqqət mərkəzindədir



**Məlum həqiqətdir ki, müasir cəmiyyətlərdə təhsilin rolu son dərəcə yüksəkdir və bunu şərtləndirən çoxsaylı səbəblər var. Əvvəla, dünya daim qlobal problemlərlə, o cümlədən iqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi, əhalinin sürətli artımı, ərzaq ehtiyatlarının çatışmazlığı, yüksək sosial həyat şəraitinin təmin edilməsi və sair bu kimi çətinliklərlə üzləşir.**

Bu problemləri də məhz elm təhsil hesabına çözmək mümkündür. Bir çox alim və ekspertlər də eyni fikirdədir ki, qlobal məsələləri təhsil vasitəsilə həll etmək olar. Həm də ona görə ki, təhsil cəmiyyət üçün vacib olan bir sıra funksiyaları yerinə yetirir.

**İnsan və cəmiyyətin həyatında təhsilin rolu durmadan artır**

Dünya ölkələrinin həyatında təhsilin rolunun təzahürü üç funksiyanın yerinə yetirilməsi ilə ifadə olunur. Bunlardan birincisi iqtisadi sferanı əhatə edir. Təhsil sisteminin buradakı ölkələrin və dünya birliyinin iqtisadi göstəricilərini yaxşılaşdıraraq insanların müasir, səmərəli biliklər aldıqları və onları öz işlərində tətbiq edə bildikləri sosial qrupları formalaşdırmaqdan ibarətdir. İkinci funkiya sosial məsələləri əhatə edir. Belə ki, məhz təhsil vasitəsilə insan sosial bacarıqlara yiyələnir. Sonuncu mədəni funksiyadır. Cəmiyyətdə təhsilin mühüm rollarından biri mədəni dəyərləri çatdırmaq, insanın şəxsiyyətini tərbiyə etmək, yaradıcılıq qabiliyyətlərini üzə çıxarmaqdır.

Amma insan və cəmiyyətin həyatında təhsilin rolu durmadan artdığından onun inkişafının əsas meylləri və vektorları da dəyişir. Belə ki, təhsil kütləvi və demokratik xarakter alır. Əvvəllər təhsil belə demək olarsa, yüksək cəmiyyətin elit nümayəndələri üçün əlçatan bir lüks idi. Amma bu gün dünyanın demək olar ki, bütün ölkələri icbari ibtidai təhsili tətbiq edib. Universitetlər isə hazır olan və oxumaq istəyən hər kəsi qəbul edir. Təhsilin müddəti də artır. Bilik mürəkkəbləşir, peşəkar bacarıqlara tələblər daha yüksək olur. Bütün bunlar ümumi təhsil müddətini artırır. Təhsil daha humanistləşir. Bu gün əsas diqqət kurrikuluma deyil, tələbələrin öz şəxsiyyətinə yönəlib. Təhsil onların maraqları, xüsusiyyətləri və istəkləri nəzərə alınmaqla qurulur. Humanitar fənlərin sayı artır. Müasir cəmiyyətdə ünsiyyət və qarşılıqlı əlaqə kimi sosial bacarıqlar bu fonda getdikcə daha çox əhəmiyyət kəsb edir. Ona görə də humanitar sahələrin - sosiologiya, politologiya, iqtisadiyyat, hüquq elmlərinin rolu artır. Təhsil həm də beynəlxalq xarakter alır. Bu, o deməkdir ki, müxtəlif ölkələrin təhsil sistemləri ümumi dil axtarır, ümumi modellər məsələn, Bolonya prosesi, tələbə mübadiləsi proqramları hazırlayır və digər təşəbbüslərə start verir. Yeri gəlmişkən xatırladaq ki, Azərbaycanda bu xüsusda proqrama yenidən start verilib. Söhbət "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"ndan gedir. Proqramın əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir.

Burada qeyd edilir ki, Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək. Dövlət Proqramının icrası ölkədə daha keyfiyyətli insan kapitalının formalaşmasına və Azərbaycanın beynəlxalq reytinqlərdə mövqelərinin əhəmiyyətli şəkildə yaxşılaşmasına şərait yaradacaq, əmək bazarında tələb olunan ixtisas sahələri üzrə peşəkar kadrlar hazırlanacaq, ölkəyə qayıdan məzunların ən müasir təcrübə və biliklərdən istifadə edərək göstərəcəkləri fəaliyyət ölkənin tərəqqisinə töhfə verəcək. Bütün bunlar təhsil hesabına dinamik inkişafa hesablanıb.

**Təhsil məşğulluq probleminin uğurlu həllində mühüm vasitədir**

O da faktdır ki, humanitar cəhətlə yanaşı, təhsil getdikcə daha çox texnoloji xarakter daşıyır. Bu mənada təbiidir ki, ölkəmizdə artıq hər bir məktəb və universitetdə kompüter sinifləri var. Bir çox universitetlər postpandemiya dönəmində belə distant təhsildən istifadə edir. Texnoloji tərəqqi ümumyyətl, Azərbaycanda təhsilə fəal təsir göstərir.

Bütün bunlar təsdiq edir ki, Azərbaycanda cəmiyyətinin inkişafında təhsilin rolu artır. Ona görə də təbiidir ki, təhsil ölkənin daxili siyasətinin prioritet istiqamətidir. Dövlətimizdə bu sahədə inkişafın əsas vektorları müvafiq qanunvericiliklə və digər rəsmi sənədlərlə müəyyən edilir. Təhsil sistemi inkişafında yaşlı nəsillərin dəyərli təcrübəsini qorumaq və ötürmək, toplanmış bilik səviyyəsini artırmaq, şagird və tələbələrin daxili potensialını inkişaf etdirmək kimi məqamlara xüsusi diqqət edir. Bu fonda təhsilin məzmunu yeniləşdirilib, yeni dərslik siyasəti reallaşdırılıb, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsinin yeni modeli tətbiq edilib. ən əsası, təhsil müəssisələrinin böyük əksəriyyəti informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilib, təhsil sisteminin informasiyalaşdırılması sahəsində uğurlu addımlar atılıb. Bu da elm, təhsil səviyyəsinə müsbət təsirini göstərib. Təbii ki, müəyyən biliyə malik insan daha rəqabətli və yaradıcıdır. Bu halda savadlı əməyin tətbiqi sahələri genişlənir. Ölkəmizdə nəzərə alınır ki, təhsil innovativ ideyaların və texnologiyaların obrazlı desək, dirijorudur. Məşğulluğu və işsizliyi səciyyələndirən statistik məlumatların dinamikasını təhlil edərkən qeyd etmək lazımdır ki, əhalinin iqtisadi fəallığının səviyyəsi, yeni işçi qüvvəsi təklifinə meyllilik təhsil səviyyəsinə mütənasib olaraq yüksəlir. Yəni, ali təhsilli insanlar arasında işsizlik səviyyəsi daha aşağıdır. İşləyənlər arasında ali təhsilli insanlar getdikcə daha çox olur. Eyni zamanda, əmək bazarı ali təhsilli insanların artmasına adekvat cavab verir. Amma o da etiraf edilməlidir ki, əmək bazarını tədricən tərk edən əmək qabiliyyətli əhalinin yuxarı yaş qruplarında orta ixtisas təhsili olan şəxslərin xüsusi çəkisi hələ də yüksəkdir. Amma ali təhsilli ixtisaslı kadrların da sayında ciddi artım var. Çünki indiki hald şirkətlərə, müəssisələrə bilikli, bacarıqlı kadrlar lazımdır. Yeni texnologiyalar böyük qabiliyyət və yüksək təhsil tələb edir. Yuxarıda deyilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, ali təhsil sistemi əmək bazarında aktual problemləri həll etməyə imkan verir. Axı, əmək bazarı kontekstindən kənarda olan təhsil öz mənasını itirir. Bu səbəbdən ölkəmizdə təhsil və əmək bazarı arasında uzlaşmanın olması dövlətin də xüsusi diqqət mərkəzindədir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**